# Mən müsəlmanam!



**Dosye:**

**Abdulaziz Bayındır 1951-ci ildə Ərzurum şəhərində doğulub. 1976-cı ildə Atatürk Universitetinin İslami elmlər fakultəsindən məzun olub. 1976-1997-ci illərdə İstanbul Müftülüyündə müftü müavini və mütəxəssis olaraq işləyib. Bu müddət ərzində Fətva Qurulu başqanlığının rəhbəri olub. 1983-1993-cü illərdə İsali Elmlər Araşdırma vəqfinin elmi yığıncaqlarını təşkil edib. 1984-cü ildə ilahiyyat üzrə doktor, 1987-ci ildə dosent olub. 1993-cü ildə Süleymaniyyə vəqfini qurub. 2003-cü ildə islam hüququ üzrə professor olub. Hər gün fəaliyyətlərini davam etdirən Abdulaziz Bayındır evlidir və dörd övladı var. Ərəb, ingilis və fransız dillərini bilir. www.kurandersi.com və www.muselmanlar.com saytlarından Bayındırın görüntülü çıxışlarına baxa bilərsiniz.**

**Əvvəllər Turan İbrahimovun aparıcılığı ilə ANS-də efirə gedən "Günə baxan" verilişində "Müqəddəslər" haqqında bir mövzu müzakirəyə çıxarılmışdı. Bu verilişdə ziyarətgah, pir və sair kimi məsələlər də toxunduq. Bunların İslamla əlaqəsi olmadığını ifadə etdim. Hətta verilişin ortasından etibarən aparıcının qulaqcığına müxtəlif etiraz dolu zənglərin gəldiyi bildirildi. Verilişdən sonra bu məsələ ilə bağlı çoxsaylı suallar verildi. Həmin suallardan biri də "Niyə indiyə kimi heç kim bunları deməyib?", "Sən onlardan çox bilirsən?" və sair kimi sual yağışına tutldum. Bu suallardan biri isə belə idi: "O boyda Türkiyədə bir nəfər bu haqda danışmadığı halda, sən haradan çıxarırsan bunları?" Maraqlı sual idi. Türkiyədə indiyə kimi bu haqda danışanlar olubmu və varmı? Sadəcə mən bilmirdim. Əmin idim ki, var. Və belə bir ərəfədə həmin ölkənin Habertürk kanalında "Tarihin arka odası" adlı verilişdə belə bir müzakirənin getdiyinin şahidi oldum. Səhərə qədər seyr etdim verilişi. Orada Quran hafizlərinə, ilahiyyatçılara və tarixçilərə Quranla cavab verən bir alimi ilk dəfə gördüm. Təsəvvür edin, bu şəxs ona etiraz edən Quran hafizinə ayəni əzbər oxumasını xahiş edir, oxunan ayə onun öz iddialarını təkzib edirdi. Bəli dərhal internetdə axtarmağa başladım. Bəli, həmin şəxs ömrünü Quran-Sünnə bütünlüyünə həsr etmiş, Süleymaniyyə vəqfinin qurucusu professor, dr. Abdülaziz Bayındır idi.**

**Yolum Türkiyəyə düşən kimi Abdülaziz bəylə görüşdüm. Həqiqətən çox təsirləndim. Zəhmli görünüşü təvazökarlığına xələl gətirmirdi. Görüşdük, danışdıq və müsahibə aldıq. Həmin şəxsi sizə qısa da olsa, tanıtmaq üçün bu müsahibəni sizə təqdim edirəm.**

-əvvəli ötən sayımızda-



**- Türkiyədə çox sayda camaatlar, təriqətlər, cərəyanlar var. Siz bunların əleyhinə kitablar yazırsınız, çıxışlar edirsiniz. Bu isə həmin insanların nifrətinə gətirib çıxarır. Hətta məsciddə sizə qarşı etirazlar da olub...**

- Süleymaniyyə məscidində bir camaat tərəfindən təşkil olunan etiraz aksiyası oldu. Məsciddə iğtişaş çıxardılar. Bu hadisədən sonra siyasi hakimiyyətlə də razılaşaraq məsciddə vəz verməyimi istəmədilər.

**- Siyasi hakimiyyətdə həmin vaxt kimlər idi?**

- Ecevitin Baş naziri olduğu koalisiya hakimiyyəti idi. İndi də ətrafdakı təzyiqlər davam edir. Amma bütün bunları adi qarşılayıraq. Çünki Türkiyə hazırda bir qabıq dəyişikliyi yaşayır. Ölkədə ciddi proseslər gedir. İnsanlar əvvəlki kimi bizimlə sərt davranmırlar. Hər gün haqlı olduğumuzu başa düşənlərin sayı artır.

**- İllərlə mədrəsə, ilahiyyat kolleci, ilahiyyat fakultəsi, magistraturası oxuduq. Ənənəvi dini təhsil aldıq. Bəzən cəmiyyətdə mövcud olan xurafatlara qarşı çıxarkən "Türkiyədə niyə etiraz edən yoxdur" kimi etirazlara tuş gəlirdik. Amma saytlarınız vasitəsilə virtual olaraq sizinlə tanış olandan sonra bütün fikirlərinizi Qurana və Peyğəmbərə əsaslandıraraq mübarizə apardığınızın şahidi olduq. Siz də bu ənənəvi sistemlə dini öyrənmisiniz. Siz necə fərqli fikirlərə gələrək, mübarizəyə başladınız?**



- Bu bəlkə də insanın xarakteri ilə əlaqəli ola bilər. İmam-hatip məktəbini qurtarırdım. Axırıncı imtahan kağızını da münsiflər heyətinə verib otaqdaq çıxdım. Münsiflər heyətinin başçısı da ayağa qalxıb çölə çıxdı. Mənə belə dedi: "Abdulaziz, imtahan kağızları hələ oxunmayıb, amma artıq müvəffəqiyyət qazanacağına şübhəm yoxdur. Universitetə qəbul olacağına da inanıram, bundan da nigaran deyiləm. Amma məni maraqlandıran bir məsələ var. "Bundan sonra kimə etiraz edəcəksən?" dedi. Çünki məktəbdə də müəllimlərin səhvi olarsa, dərhal reaksiya verərdim. Bu universitetdə də, müftülükdə də davam etdi. Etiraz etmək üçün etiraz etməmişəm və belə bir hadisəni də xatırlamıram. Doğru olduğuna inandığım məsələlərdə həmişə etiraz etmişəm. İnsanlar həmişə gəlib sual soruşurlar. Bəzən cavab verərkən, "belə ola bilməz" deyə fikirləşdiyim məsələlər olub. Tədqiqatlardan sonra Süleymaniyyə vəqfində heyəti formalaşdıra bildik. Mənim bəxtim gətirib ki, heç vaxt təkbaşına fəaliyyət göstərməmişəm. Həmişə heyətlərlə işləmişəm. Allah da Quranda buyurur ki, Bizim yolumuzda cəhd göstərənləri mütləq öz yolumuza istiqamətləndirəcəyik... Allaha şükürlər olsun.

**- İslam haqqında bir şey deyiləndə ənənəvi dindarlığın təmsilçiləri, yaxud dini bilməyənlər "1400 ildir heç kim bilmədi sən bilirsən?" kimi suallar verirlər. Siz bu suallara necə cavab verirsiniz?**

- Bunlar boş sözlərdir. Heç kim yazmadı deyənlərə, Allahın göndərdiyi kitabı ünvan kimi göstəririk. Dediklərimiz Quranda və Peyğəmbərimizin sunnəsində olan məlumatlardır. Bu fikirdə olanlar bunları görməyiblərsə, mən onlara nə edə bilərəm?

**- İmam Buxari bir hədis üçün bəzən 3 aylarla yol qəti edirdi. Amma bütün hədislər və Quran kompüterdə mövcud olduğu üçün dərhal axtarılanı tapmaq olur və vaxta da qənaət olunur. Bu texnoloji avantaj ola bilərmi?**

- Bu da ola bilər. Bir misal verim. Fiqhdə (İslam hüququnda - EM) qadının boşama haqqı ilə bağlı məlumat yoxdur. Halbuki bununla bağlı ayələr və Peyğəmbərimizin icraatları var. Kişinin boşaması haqqında "Talaq" surəsi var. "Bəqərə" və "Əhzab" surələrində ayələr var. Hazırda mövcud olan məzhəblərin heç birində bu ayələrə uyğun boşanma sistemi yoxdur. Onların hökmləri səhih hədislərə də uyğun gəlmir. Nəsx edilməsi ilə bağlı da bir şey demirlər. Deyə də bilməzlər. Demək istədiyim odur ki, bu boşanma sistemi ilə ailəni pərişan ediblər. Bizim əlimizdə kompüter, internet olsa da, onların əlində də Quran var idi. Quranda da "Talaq" surəsi var. Əksəriyyəti də bu surələri əzbər bilirdilər. Uşaqların evləndirilməsi ilə də bağlı məsələlər var...

Bunların texnologiya ilə əlaqəsi yoxdur. Abbasilər dövründə bu məsələlərdə böyük dağıntılar oldu. Bəziləri bunları Əməvi hakimiyyəti ilə əlaqələndirməyə çalışırlar, amma yaddan çıxarmayaq ki, Əməviləri tanıdanlar da Abbasilər olub. Əməvilərdən əlimizdə heç nə qalmayıb. Abbasi hakimiyyəti də Əməvilərin can düşməni olub. İmam Əbu Hənifəni də öldürən Abbasilər olub. Əhli-beyt tərafdarı görünmələrinə baxmayaraq onlara da düşmən olublar. Peyğəmbərimizin nəvələrini öldürüblər. Mənə elə gəlir ki, bu məzhəblər dövlət tərəfindən dəyişdirilib. Hazırda mövcud olan məzhəblərin həmin məzhəbləri olması ilə bağlı ciddi şübhələr var.

**- Hətta İmam Əbu Hənifənin tələbələri tərəfindən verilən fətvaların yarısından çoxunun imamın fətvalarına zidd olduğu ifadə edilir.**

- Əbu Hənifə Abbasilərə qarşı mübarizə apardığı, onların Peyğəmbərin nəvələrinə qarşı rəftarlarının səhv olduğunu ifadə etdiyi halda, fətvalarında bunun əksi bizə çatdırılıb. Hənəfi məzhəbinin kitablarında bu ziddiyyətləri görə bilərik. Biz bütün bunları ortaya çıxardığımıza görə bizə nə hənəfi, nə şafii, nə maliki deyə bilirlər.

**- Onda siz məzhəbsinizmi?**

- Məzhəb bir görüş, fikir deməkdir. Mənim də bir görüşüm var. Bu görüşüm də Qurana və sünnəyə tabe olmaq, Quran-sünnə bütövlüyü daxilində yaşamaqdır. Hənəfisinizmi deyə soruşsanız, şafii olduğumu bilmək istəsəniz, şiəsinizmi desəniz, açıq-aşkar olmadığımı deyəcəyəm. Mən ancaq müsəlmanam. Çünki Allah mənə bu adı verib. Allahın verdiyi addan daha gözəli yoxdur.

**- Türkiyədə əməldə özünü hənəfi adlandıranlar, əqidədə maturidi, şafii hesab edənlər əqidədə əşari olaraq adlandırırlar. Siz əqidədə hansındansınız?**

- Mən müsəlmanam. Bəziləri hədislərə Qurandan daha çox yer ayırırlar. Sünnənin Qurana hakim olduğu fikrini formalaşdırırlar. Sünnənin axırıncı sözü söylədiyinə inanırlar. Quranı ikinci plana qoyurlar. Bizim isə bunu qəbul etməyimiz mümkün deyil...

Maturidi və Əşari məsələsi ilə bağlı qeyd edim ki, bunların bəzi sözlərinin doğru olmasına baxmayaraq, bir çox məsələdə təməl xətaları var. Kitablarımızda bu haqda məlumatlar var. Biz bir məzhəbə tabe oluruq, amma həqiqəti tapan kimi həmin səhvimizi düzəldirik.

**- Bir az əvvəl Peyğəmbərimizin nəvələrinin öldürülməsi məsələsinə toxundunuz. Maraqlıdır, nəyə görə həm Əməvilər, həm də Abbasilər bu insanları düşmən gözündə görüblər?**

- Hakimiyyət savaşı. Onları aradan çıxararaq öz iqtidarlarını saxlamağa çalışıblar. Bu düşmənçiliyin kökü hakimiyyət qovğasına gedib çıxır.

-inşaAllah ardı gələn sayımızda-

Elşad MİRİ